Orucoğlu, Z. Ramil Vətən qarşısında borcunu şərəflə verdi / Zəfər Orucoğlu // İki sahil. - 2021. - 3 mart. - № 40. - S. 16.

44 günlük şanlı zəfərimizdə çox igidimiz Vətən, torpaq yolunda canından keçdi. Mayor Ramil Mərdan oğlu Ağayev də belə qəhrəmanlardandı. Dağlar diyarı Lerikli balasının ömür yolu cəmi 36 il çəkdi. Bu işıqlı dünyada az yaşasa da, xalqına layiqli bir övlad olaraq Vətən qarşısında borcunu şərəflə verdi.

Ramil Ağayev 2006-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi bitirib qəlbini tam Vətənə, torpağına bağlayır. Qarabağın düşmən tapdağında olmasına ona heç cür rahatlıq vermir, azad olması üçün canını belə hər an qurban verməyə hazır olur. Leytenant rütbəsi ilə xidmət etdiyi hərbi hissədə əsgərlərin, zabitlərin hörmətini qazanır.

Mingəçevirdə, Murovdağ silsiləsində Vətənin şərəfini ləyaqətlə qoruyur. 2016-ci ilin Aprel döyüşlərində göstərdiyi xüsusi şücaəti ilə yaddaşlarda qalır. Belə ki, Lələtəpənin alınmasında dığalara qan uddurur. Bu uğura görə Ramilə mayor rütbəsi verilir.

Ramil İkinci Vətən müharibəsinin ilk günündən bir-neçə ağır döyüşlərin qəhrəmanı olur. Öndə getməsi, igidliyi onunla çiyin- çiyinə döyüşənləri də irəliyə, yalnız qələbəyə səsləyir. Cəbrayıl döyüşlərində təkcə düşmənin 12 tankını sıradan çıxardır. Məqamında dəfələrlə yaralıları ağır döyüş meydanından çıxarmaqla, onlara ikinci həyat verir. Qəhrəman Ramil Füzulinin yaşayış məntəqələrinin alınmasında da dığaları ağır itkilərə məruz qoyur. Təəssüf ki, 2020-ci ilin oktyabrın 8-də ömrünün 32-ci baharında şəhadətə qovuşur.

Qəhrəmanımız layiqli xidmətə görə dövləti tərəfində çoxlu orden, medal almışdı. Vətən müharibəsində aldığı “ Vətən uğrunda” medalı da bu təltiflərə əlavə olundu.